# "İtən iki manat" və ya "əzizim"

**Seyfi müəllim bilsəydi ki, başına bu qədər əcaib işlər gələcək heç bu gün evdən çölə çıxmazdı. Fikirləşdi ki, kaş qıçı sınaydı, amma bu günkü əziyyətləri görməyəydi. Ani olaraq başına gələn bu fikirdən çəkinən kimi oldu. Ətrafına baxdı, qorxa-qorxa. Qorxusu bu idi ki, arvadı Süsən xanım eşidər və ya bu peşmançılığı duya bilər. Odur ki, tez öz fikrini dəyişdi. Lap tək ayaqla, protezlə də olsa gedərdim, lap özgədən borc ayaq alardım. Qoymazdım ki, Süsənimin tapşırığı icrasız qalsın. Ona elə gəldi ki, bu fikirlərini Süsən xanım da oxudu. Hər ikisinin çöhrəsi mülayim və mehriban idi.**

Səhər tezdən Süsən xanımın iş bölgüsü belə oldu ki, sürücü Seyfini aparır Süsənin atası evinə, Seyfi qaynatası və qaynanasını öz xidməti maşını ilə Naftalana yola salır, özü isə oradan işinə gedir.

Saat səkkizə az qalmış maşın qapıda idi. Ərini yola salan Süsən xanım tapşırıqlarını bir daha Seyfiyə xatırlatdı. Seyfi yalnız "baş üstə" deyə bildi. Pilləkanları enib maşına yaxınlaşırdı ki, Səkinə arvad birinci mərtəbədəki mənzilinin qapısını açıb, - Sabahın xeyir müəllim, uğur olsun - dedi. Seyfi salamı alsa da qanı qaraldı. Sınamışdı, bu qarı nə vaxt qabağına çıxsa, onun işi tərs gətirərdi. Bu günkü şübhəsi də düz çıxdı.

Deyilən vaxtda Seyfi qaynatasıgilin evinin qabağında idi.Bir azdan yol çantaları maşına yükləndi. Murad kişi və Ziba xanım da gəldilər. Hər ikisi kürəkənləri ilə görüşüb-öpüşdülər.Sonra maşına oturub yola düşdülər. Seyfi xidmətçinin əlindən badyanı alıb,maşının arxasınca suyu özü atdı (Süsən belə tapşırmışdı), ürəkdən "yaxşı yol" dedi. Bütün əhvalatlar da bundan sonra başlandı...

Seyfi saatına baxdı.İş vaxtına hələ bir saatdan çox var idi.Fikirləşdi ki,bir az gəzinib sonra işə getsin. Belə də etdi.

Onun həyatı elə gətirmişdi ki,hər yerə maşınla gedib-gəlməli olmuşdu. Bağçaya, sonra məktəbə onu evin tək və əziz övladı olduğu üçün atası, olmayanda əmisi aparıb gətirərdi. Ali məktəbə qəbul olan kimi atası onun üçün xüsusi maşın aldı və sürücü təyin etdi.Maşın onu dərsə aparır və o dərsdən çıxana qədər gözləyib evə gətirirdi. İlk iş yerindən başlayaraq işdə də daima xidməti maşını olmuşdu. Odur ki, Bakıda anadan olub, az qala qırx yaşa çatan Seyfi demək olar ki, şəhərdə heç yeri tanımırdı. Ona görə də fikirləşmədən getməyə başladı, ayağı hara başı da ora. Xeyli gəzindi, ayaqlarının yoruıduğunu hiss edəndə başını işə salıb fikirləşdi ki, iş vaxtı çatmış olar. İstədi taksi saxlatsın, sonra nə fikirləşdisə dayandı.Əlini cibinə atdı ki,baxsın nə qədər pulu var. Ölmüşdü Xankişi,.. Süsən Süsən olmazdı onun cibində pul qoysa idi.

Süsən çox qayğıkeş və ailəcanlı qadın idi,di gəl ki, pula məhəbbəti çox güclüydü. Seyfi evə gəlib əynini dəyişməyə mütləq Süsənin müşaiyəti ilə başlamalı idi. Pencək Süsənin yoxlamasından keçməsə asılqana asıla bilməzdi. Şalvar isə başı,yəni nifəsi aşağı tutulub silkələnməli,ciblər boşalmalı idi. Bu qaydaya hər gün əməl edilməsi məcburi idi.Bütün pulları Süsən götürər və yalnız özü bilən yerdə gizlədərdi. Bu ona görə deyildi ki, əri və uşaqlarına inanmırdı,əksinə o,hamıya inanır və etibar edirdi. Ancaq pula sevgisi çox olduğundan qorxurdu ki,ailə üzvlərindən kimsə puldan götürüb xərcləyə bilər. Bu isə onunçün əsl fəlakət olardı.

İnsafən ərinə hər gün cib xərcliyi verməyi unutmazdı. Amma o baxardı Seyfinin gətirdiyi pula. Seyfi iki-üç yüz manatdan az pul gətirəndə Süsən ərinə minnət qoymağı, danlamağı da unutmazdı, - Bu nə puldur? Atam səni o vəzifəyə bu qəpik-quruşa görə təyin elətdirib? Sənin yerinə başqa kişi olsaydı günə azı min manat qazanardı.

Amma səhər Seyfini işə yola salanda artıq hirsi soyumuş olduğundan iki, üç, bəzən də beş manat Seyfinin axşam boşaltdığı cibinə basar və: - əfəl olma, heç kimə güzəşt etmə, indi pulsuz kim kimə iş görür? - deyərək ərinə xeyir-dua verər, işə yola salardı. Bir "yaxşı" işi də vardı Süsənin, Seyfiyə beş manat verdiyi günü mütləq zəng edib üç-dörd manatlıq nə isə almağı tapşırardı.

Bu gün də Süsən Seyfiyə iki beş manatlıq və üstündə bir siyahı vermişdi ki, ata-anası üçün yol ərzağı-şirələr və mer-meyvə alsın. Seyfi cibindəki pullara baxdı. İki manat iyirmi qəpik idi. Dərindən "ah" çəkdi. Dilxor olsa da,rahat nəfəs aldı. Nə yaxşı

*Hekayə*

ki, taksi saxlatmamışdı. Yoxsa biabır olardı. Bir az da irəli gedib avtobus dayanacağına çatdı.İdarəsinin Nizami metrosuna yaxın yerdə yerləşdiyini bilirdi. Odur ki, "M.Nizami" yazısı olan avtobusa əyləşdi. Küçələr Bakının səhər tıxacı ilə yükləndiyi üçün avtobus çox yavaş irəliləyirdi.Qırx-əlli dəqiqə beləcə gedəndən sonra Seyfinin hövsələsi daraldı. O, yanındakı kişidən olduqları yeri xəbər aldı. Biləndə ki, yeddinci mikrorayona gəlib dilxor oldu. Maşından düşüb, geri qayıtmaq istədi. Nizami metrosuna necə getməyi soruşanda məlum oldu ki,o metronun lap yaxınlığından bu avtobusa minmişdir.Amma metroya gedənə yox,metrodan gələnə. "Nə isə,lənət kor şeytana deyib" yol haqqını ödədi və avtobusdan düşdü.Yolun o biri tərəfindəki dayanacağa gəldi.Üstündə "M.Nizami" yazısı olan avtobus yox idi.Bir az gözlədi.Susamışdı,istədi marketə girib su, ya da şirə alsın.Piştaxtaya yaxınlaşıb əlini cibinə saldı.O qiymətli iki manatdan əsər-əlamət yox idi. Onu təlaş bürüdü. Bilmədi ki, pulu itirib yoxsa cibgirlər çıxarıb.Necə olsa da indi o tam pulsuz qalmışdı.Özü də bilmədi ki,nə etsin,hara getsin.Əl telefonu da yox idi ki, kiməsə zəng edib kömək istəsin.- Süsənin tapşırığı ilə öz əl telefonunu qaynatasına vermişdi ki,kənarda olacaqlar,qoy əlaqə etibarlı olsun.Cəld addımlarla avtobusdan düşdüyü yerə qayıtdı ki,bəlkə iyirmi qəpiyi çıxaranda o iki manatı da orda salıb.Utana-utana axtarmağa başladı.Amma bu axtarış faydasız oldu.Axırda əlacı üzülüb vəziyyətlə barışmalı oldu.Elə bir halda idi ki, indi onun Moskvada,Londonda,Bağdadda ya da doğma Bakıda olmasının heç bir əhəmiyyəti yox idi.Bakı da o başqa şəhərlər kimi ona yad idi.Qapalı və adi insani həyatdan təcrid olaraq yaşamağın acısını tam şiddəti ilə hiss etməyə başladı.Söz deyəsi,kömək istəyəsi bir adamı olmadığını görüb,özünə yazığı gəldi.İstiqamətin fərqinə varmadan getməyə başladı.Hara getdiyini,nə qədər getdiyini bilməsə də tam yorulmuşdu.Bütün bədəni tər içində idi.Oturub dincəlmək üçün yer axtarırdı.Artıq gün günorta idi.Zenitdə olan günəşin şüaları odlu ox kimi adama sancılırdı. Seyfi pencək və qalstukunu çıxarıb əlinə götürdü. Tanımadığı, lakin, səliqəli bir balaca parka gəlib çıxmışdı.Kölgə düşən bir skamyada əyləşdi. Ayaqqabılarını çıxaranda elə bildi cənnətə düşdü.- Bu ləzzəti bütün ömründə dadmamışdı.Ürək dolusu "oxxay" çəkdi. Bir az dincəlib özünə gəlirdi ki,ayağındakı ağrı və sızıltını hiss etməyə başladı. Corablarını çıxaranda onu təəccüb bürüdü. Ayağı qabar-qabar idi, əl vurmaq olmurdu. Özünün bu halını görüb, aclığını və susuzluğunu unutdu. Nə oldusa birdən arvadı Süsən yadına düşdü.İndi o nə edir görəsən? Yəqin bütün idarəyə həyəcan siqnalı verib, onu axtartdırır. Zarafat deyil gün yarıdan keçib, Seyfi hələ də ona zəng etməyib,halını soruşmayıb.Bu olan iş deyildir.Birdən iki manatın itməyi Seyfinin yadına düşdü. Ayağının ağrısı, aclığı, susuzluğu yaddan çıxdı. Pulun itməyini biləndə Süsənin nə hala düşəcəyi gözünün qabağına gəldi.Belə dəhşətli mənzərəni Allah heç kimə göstərməsin. Fikrində qorxdu ki, Allah eləməmiş Süsənə bir şey olar. Seyfi bu ağır fikirlər odunda qovrulan zaman birdən:

-Ay salam-əleyküm Seyfi müəllim! Sən hara, bura hara? Bu nə haldır? Mənə görə bir qulluq?A kişi, səni birinci dəfədir ki, bu halda görürəm. Nə olub belə?

Uşaqlıqdan tanıdığı və ən çox zəhləsi gedən sinif yoldaşı Nasir indi bu adamı bezdirən sualları ilə də Seyfiyə dünyanın ən yaxşı,doğma adamı kimi göründü.Qalxıb onu qucaqlamaq, öpmək istədi, amma dura bilmədi. Nasir onun yanında oturub, yenə suallar verməyə başlayanda Seyfi onun sözünü yarıda kəsib:

-Hamısını sıonra bilərsən, indi isə məni evə çatdır - dedi.

-Baş üstə, beş dəqiqə gözlə maşını gətirim - Nasir dedi və qalxıb getdi.

Seyfi istədi ki, ayaqqabılarını geyinsin, mümkün olmadı. Pencəyini və ayaqqabılarını əlinə götürüb ayaqları daş plitələrin istisindən bişə-bişə maşına tərəf getdi.Nasirin köməyi ilə maşına oturdu.Nasir ünvanı bildiyindən heç nə soruşmadan yola düşdü-.Adəti üzrə bütün yol boyu danışığını saxlamadı, nədən desən yerli-yersiz danışırdı. Təki ağzı boş qalmasın. Ayrı vaxt olsaydı bu hərzəçənəlik Seyfini bezdirərdi, indi isə Bu yumşaq maşında Nasirin danışıqları ona ən əziz və doğma səs qədər şirin gəlirdi.

Gün ərzində çəkdiyi əzablar onu sarsıtsa da,başına gələnlər ona adi həyat tərzi keçirən adamların halını yaşatdı.

Maşın evlərinin qabağında dayananda Seyfi özünə gəldi.Onu evdə nələr gözlədiyini düşünəndə bütün ağrı-acılarını unutdu, başının tükləri həyəcanından biz-biz durdu.

Süsən xanım bütün günü Seyfini tapa bilmədiyi üçün əvvəl-əvvəl ona qəzəblənsə də,vaxt keçdikcə narahat olmağa başlamışdı. Odur ki,qapı zənginə özü gəlib qapını açdı. Əvvəl istədi ərinin abrını ətəyinə büksün, onun halını görəndə çaşdı və nə edəcəyini bilmədi.

- Bu nə haldır, əzizim? Səni kim bu hala salıb,evim-eşiyim? - deyə pıçıldadı.

Elə bil ki,Seyfiyə dünyanı verdilər. Sanki bu əziyyətlər onun başına gəlməmişdi. "Əzizim, evim-eşiyim" - nə şirin səslənirdi Süsənin dilində. Bu sözləri arvadı ona bircə dəfə toy günündə, zifaf gecəsi demişdi və bir də indi deyirdi. Belə şirin sözlərə görə hər əzaba qatlaşmağına dəyərdi...

Həmin günün özəlliyi bir də onda idi ki, Seyfinin cibləri arvadı tərəfindən təftiş edilmədi, şalvarı nifəsi aşağı silkələnmədi...

**Rəsul İlməddinoğlu**